Azərbaycan Respublikasının Sahibkarlığa
Kömək Milli Fondunun Müşahidə Şurasının
2009-cu il 25 noyabr tarixli iclasının qərarı ilə
(Protokol №19) təsdiq edilmişdir

# Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında, dövlət proqramlarında iqtisadiyyatın bu və ya digər sahəsinin inkişafı ilə bağlı nəzərdə tutulan konkret layihələrin Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına həyata keçirilməsi məqsədilə müsabiqələrin keçirilməsinə dair

# MEYARLAR

## I. Ümumi müddəalar

1.1. Bu Meyarlar Azərbaycan Respublikası Prezidentinin 2009-cu il “7” oktyabr tarixli 162 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə”yə, “Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydaları”na (bundan sonra - Qaydalar) və digər normativ xarakterli aktlara uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında, dövlət proqramlarında iqtisadiyyatın bu və ya digər sahəsinin inkişafı ilə bağlı nəzərdə tutulan konkret layihələrin Sahibkarlığa Kömək Milli Fondunun (bundan sonra - Fond adlanacaq) vəsaitləri hesabına həyata keçirilməsi məqsədilə sahibkarlıq subyektləri arasında müsabiqənin keçirilməsi mexanizmini və prosedurlarını müəyyən edir.

1.2. Müsabiqənin keçirilməsində başlıca məqsəd Fondun vəsaitlərinin dövlətin iqtisadi siyasətinə uyğun olaraq daha səmərəli yerləşdirilməsindən, sahibkarlıq subyektlərinin biznes ideyalarının formalaşmasına kömək göstərilməsindən və azad rəqabət mühitinin daha da inkişaf etdirilməsindən ibarətdir.

1.3. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən və müvafiq qanunvericiliyə uyğun olaraq dövlət qeydiyyatına alınmış bütün sahibkarlıq subyektləri müsabiqədə iştirak edə bilər.

## II. Müsabiqənin keçirilməsinə hazırlıq mərhələləri

2.1 Müsabiqənin təşkil olunması üçün Fond aşağıdakı tədbirləri həyata keçirir:

2.1.1 Fond müsabiqənin keçirilməsi ilə əlaqədar qərar qəbul etdikdən sonra müsabiqə elanının kütləvi informasiya vasitələrində və müvafiq veb – saytlarda yerləşdirilməsini təmin edir;

2.1.2 müsabiqə elanının verilməsi məqsədilə bu Meyarların 2.2-ci bəndindən irəli gələn şərtləri təsdiq edir;

2.1.3 təbliğat və təşviqat işlərini həyata keçirir.

2.2 Müsabiqə elanında aşağıdakılar göstərilir:

2.2.1 həyata keçiriləcək layihənin xüsusiyyətləri və yeri;

2.2.2 müsabiqədə iştirak qaydaları;

2.2.3 tələb olunan sənədlərin qəbuluna başlanma tarixi, yeri və son tarixi;

2.2.4 zərflərin açılması və müsabiqənin keçirilməsi nəzərdə tutulan yer, gün və saat;

2.2.5 əlavə məlumat almaq üçün əlaqələndirici şəxslərin elektron ünvanları, iş və faks telefon nömrələri,.

2.3 Müsabiqə haqqında elan dərc olunduqdan sonra müəyyən edilmiş şərtlərin sonradan dəyişdirilməsinə yol verilmir.

## III. Müsabiqədə iştirak qaydaları və təkliflərin müsabiqəyə təqdim olunması

3.1 Müsabiqədə iştirak etmək istəyən sahibkarlıq subyektləri ilkin olaraq müvəkkil kredit təşkilatlarına müraciət edirlər. Müvəkkil kredit təşkilatları öz biznes maraqları və Fondun müəyyən etdiyi investisiya layihələrinin tərtib olunmasına dair minimal tələblər və qiymətləndirmə meyarlarına əsaslanaraq sahibkarlıq subyektlərinin təkliflərini 10 (on) bank günü müddətində təhlil edir.

3.2 Müvəkkil kredit təşkilatları təkliflərin maliyyələşdirilməsi ilə əlaqədar müsbət qərar qəbul etdiyi layihələrə dair "Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına müvəkkil kredit təşkilatları tərəfindən maliyyələşdirilməsinə dair qərar qəbul edilmiş investisiya layihəsi haqqında Məlumat"ı iki nüsxədə tərtib edərək, hər biri ayrı-ayrılıqda bağlı tərəfləri imzalanıb möhürlənmiş ikiqat zərfdə müsabiqə elanında göstərilmiş müddət ərzində Fonda təqdim edir.

3.3 Təklifi mənfi qiymətləndirilən sahibkarlıq subyektlərinə müvəkkil kredit təşkilatları tərəfindən 3 (üç) bank günü müddətində əsaslandırılmış imtina məktubu verilir.

3.4 Müsabiqəyə təqdim edilmiş təkliflər üzrə tələb olunan kredit vəsaitinin həcmi müvəkkil kredit təşkilatları üçün müəyyən edilmiş limit çərçivəsində olmalıdır.

3.5 Hər bir sahibkarlıq subyekti üzrə müsabiqəyə yalnız bir təklif təqdim edilə bilər.

3.6 Gecikmiş zərflər qəbul olunmur və açılmadan geri qaytarılır.

## IV. Müsabiqəyə təqdim edilmiş təkliflərin ekspertizası və ilkin monitorinqi

4.1 Müsabiqəyə təqdim edilmiş təkliflərin ekspertizası və bilavasitə yerində ilkin monitorinqi Qaydalara uyğun olaraq Fond tərəfindən həyata keçirilir.

4.2 Müsabiqənin keçirilməsinə azı 1 (bir) gün qalmış təkliflərin ekspertizası başa çatdırılır və hər birinin nəticələrinə dair rəy hazırlanaraq Fond tərəfindən müvafiq qərar qəbul edilir.

## V. Müsabiqənin keçirilməsi qaydası

5.1 Müsabiqənin keçirilməsi barədə elan Fond tərəfindən zərflərin qəbuluna başlandığı gündən ən azı 30 (otuz) gün əvvəl dərc etdirilməlidir.

5.2 Müsabiqə müəyyən olunmuş yerdə və vaxtda keçirilir.

5.3 Müsabiqədə Fond tərəfindən dəvət olunmuş şəxslərlə yanaşı təklifləri təqdim edilmiş sahibkarlıq subyektləri və müvəkkil kredit təşkilatlarının səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

5.4 Fond tərəfindən zərflərin açılmamışdan əvvəl bütövlüyü yoxlanılır və ekspertizanın aparılması məqsədilə zərflərin daxil olduqları tarixlər üzrə ikinci nüsxəsi ardıcıllıqla açılır.

5.5 Müsabiqə keçirilən yerdə iştirak edən şəxslərə elan olunmuş müsabiqə üzrə təklifləri təqdim edilmiş hər bir sahibkarlıq subyektinin adı, ünvanı və təklifi haqqında məlumatlar elan olunur.

5.6 Fond 10 (on) bank günü müddətində təqdim edilmiş təkliflərin bu Meyarların 4-cü bəndində nəzərdə tutulmuş qaydada ekspertizasını aparır.

5.7 Fond müəyyən olunmuş yerdə və vaxtda aparılmış ekspertizanın nəticəsinə uyğun olaraq müsabiqənin qalibini (qaliblərini) elan edir.

## VI. Müsabiqənin baş tutmaması

6.1 Müsabiqədə iştirak etmək üçün müraciət olmadıqda Fond müsabiqənin davamından imtina edir və bu barədə məlumatla birgə müsabiqənin ikinci dəfə keçirilməsi barədə elanı bu Meyarların 2–ci bəndinə uyğun olaraq dərc etdirir.

6.2 Müsabiqənin ikinci dəfə keçirilməsi barədə elan Fond tərəfindən zərflərin qəbuluna başlandığı gündən ən azı 30 (otuz) gün əvvəl dərc etdirilməlidir.

6.3 İkinci dəfə elan olunmuş müsabiqə üzrə müsabiqədə iştirak etmək üçün müraciət olmadıqda Fond müsabiqənin baş tutmaması barədə qərar qəbul edir.

## VII. Müsabiqədə qalib elan olunmuş təkliflərin maliyyələşdirilməsi

7.1 Təqdim edilmiş təkliflər üzrə müsabiqənin nəticələri barədə Fond tərəfindən müvəkkil kredit təşkilatlarına Qaydalara uyğun olaraq müvafiq məlumat verilir.

7.2 Müsabiqədə qalib elan olunmuş təklif Qaydalara uyğun olaraq maliyyələşdirilir.

**Bu Meyarlar təsdiq olunduğu gündən qüvvəyə minir.**